2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 58 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 05 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 72 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Axundov Rahim Adış oğlunun səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində baş vermiş qanun pozuntularının araşdırılmasına və səsvermənin nəticələrinin etibarsız hesab olunmasına dair 5 sentyabr 2024-cü il tarixli 58 saylı şikayətini nəzərdən keçirərkən müəyyən etdim:

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Göstərilənlərlə müəyyən edilir ki, daxil olmuş müraciət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də şikayət etmiş şəxsə geri göndərilməlidir.

Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 72 saylı Cəlilabad kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Axundov Rahim Adış oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 sentyabr 2024-cü il tarixli 58 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən şikayət etmiş şəxsə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü**

**Nailə Əsgərova**